Tarix və onun problemləri, № 4 2012

**İSLAMOVA ZƏHRA**
*Bakı Dövlət Universiteti, Azərbaycan tarixi kafedrası doktorantı*
*E-mail:* ayxan.islamli@mail.ru

# XVII ƏSRİN I RÜBÜNDƏ AZƏRBAYCAN TARİXİ RUS ELÇİ VƏ DİPLOMATLARININ QEYDLƏRİNDƏ

**Açar sözlər:** Səfəvi, Moskva, Kotov
**Ключевые слова:** Сефевиды, Москва, Котов
**Key words:** Safavid, Moscow, Kotov

XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin siyasi, iqtisadi və sosial vəziyyəti çox gərgin idi. Buna səbəb Səfəvi və Osmanlı dövlətləri arasında fasilələrlə davam edən müharibə (1603-1639) idi. Əsas mübarizə əlverişli şəraitə malik olan məhsuldar Azərbaycan torpaqlarını, beynəlxalq ticarət və karvan yollarını ələ keçirmək, Azərbaycanda istehsal olunan və bütün Qərbdə məşhur olub yüksək qiymətləndirilən Şamaxı, Nuxa, Gəncə ipəyinin Avropa bazarlarına çatdırılması uğrunda gedirdi [1, c.114]. I Şah Abbas dövründə (1587-1629) Səfəvilərin güclənməsi, əvvəlki qüdrətini özünə qaytarması Azərbaycan torpaqlarının Osmanlıdan geri alınması və 1590-cı il İstanbul müqaviləsi şərtlərinin ləğv edilməsinə gətirib çıxardı [2, c.94]. XVII əsrin əvvəllərində Moskva knyazlığı da ağır tarixi bir dönəmdə yaşayırdı. Belə ki, hakimiyyət uğrunda mübarizə, xalq üsyanları və İsveç-Polşa müdaxiləsi bu dövləti çox çətin siyasi vəziyyətə salmışdı [3, c. 121]. Bu səbəbdən 1605-1613-cü illərdə Rusiyanın Şərq ticarəti tənəzzülə uğramışdı. Moskva knyazlığının başının daxili məsələlərə qarışması ona Səfəvilərin Cənubi Qafqaz siyasətinə mane olmağa imkan vermirdi. Mövcud vəziyyətdən istifadə edən Səfəvilər Şərqi Gürcüstanı yenidən özlərinə tabe etmişdilər. Belə ki, Osmanlı-Səfəvi müharibələrindən istifadə edən Gürcüstan Səfəvi təsir dairəsindən çıxmış, hətta 1587-1589-cu illərdə Rusiya tabeçiliyinə keçmək barədə danışıqlar aparmışdı. Bu danışıqlar haqda geniş məlumat verən N.İ.Vasilçikov "İran olayları 1588-1592-ci illərdə" kitabında həm də iqtisadi və sosial məsələlərə də toxunmuşdu [4, c. 78]. XVII əsrin əvvəllərində Avropa arenasında baş vermiş dəyişikliklər, xüsusilə bu dövrdə Osmanlı imperiyasının zəifləməsi tam olaraq Rusiyanın xeyrinə idi və onun möhkəmlənməsi üçün əlverişli şərait yaratmışdı. Romanovlar sülaləsinin ilk nümayəndəsi olan Mixail Feodoroviç Romanov (1613-1645) hakimiyyətə gəldikdən sonra öz dövlətini möhkəmləndirməyə çalışırdı. O, ilk növbədə qonşu dövlətlərlə, ilk növbədə Səfəvilərlə "mehriban dostluq" münasibətləri yaradaraq gərginliyi aradan qaldırmağa cəhd göstərmişdir. Bunun üçün Səfəvi sarayına bir neçə dəfə səfirlik və diplomatik heyətlər göndərilmişdir. Fasiləsiz səfirlik mübadiləsi XVI əsrin 80-ci illərindən başlasa da, ilk ciddi addım 1608-ci ildə Şah I Abbas tərəfindən Əmir Əli bəyin başçılığı ilə kiçik heyətin Moskvaya göndərilməsindən başlayır. Belə ki, Səfəvi sarayının özündə də Rusiyada gedən siyasi proseslər diqqətlə izlənilirdi. Əli bəy öz qeydlərində bildirir ki, o, buraya diplomatik münasibətlər yaratmaq yox, sadəcə dostluq münasibətlərinin bərpası üçün göndərilib. Əli bəyin missiyası haqda məlumatların az olmasına baxmayaraq ilk diplomatik addım kimi yüksək qiymətləndirilməlidir, çünki Rusiya-Səfəvi münasibətləri əvvəlki əsrlərdə ticarət-iqtisadi münasibətlər üzərində qurulmuşdu. Əmir Əli bəyin elçiliyi Mixail Romanovun hakimiyyətinin qanuniliyini qəbul edən ilk nümayəndəlik kimi tanınır. [5, c.25] Yolda ikən qarət olunan Əmir Əli bəyə Şah I Abbas tərəfindən verilən

Tarix və onun problemləri, № 4 2012

əsas tapşırıq ölkədəki siyasi vəziyyəti dərindən öyrənmək idi. Elçiliyə Osmanlıya qarşı müttəfiq tapmaq və hərbi-siyasi ittifaqa nail olmaq tapşırığı verilsə də, bu əslində aldadıcı bir fənd kimi qiymətləndirilə bilər. Bununla əslində Şah Abbas arxadan ola biləcək zərbəni neytrallaşdırmağa çalışırdı ki, bunu biz sonrakı diplomatik heyətlərin fəaliyyətlərində də izləyirik. Bəzi mənbələrdə bu missiyanın 1608-ci ildə göndərilməsi haqda məlumatlar öz təsdiqini tapır. Bunu Moskva knyazlığında baş verən çəkişmələrin məhz həmin dövrə təsadüf etməsilə əlaqələndirmək olar. Lakin Əmir Əli bəyin yalnız 1613-cü ildə Moskva çarının qəbulunda olması, buradakı siyasi gərginlikdən xəbər verir. Missiya o qədər də uğurlu hesab edilmir, çünki bu zaman yorğun və qarət olunmuş elçiliyin əsas istəyi Azərbaycana qayıtmaq idi. Qeyd etdiyimiz dövrdə Əmir Əli bəyin səfirliyi ilk addım sayılsa da, Səfəvi-Rusiya arasında dostluq münasibətlərinin yaranmasında əsaslı rolu 1614-1615-ci illərdə Şah sarayına göndərilən M.N.Tixanovun səfirliyi oynamışdır. Rusiya ilə Səfəvilər arasındakı diplomatik münasibətlər tarixi məhz M.N.Tixanovun səfirliyindən götürülür. Çünki məhz səlahiyyətli dövlət nümayəndəsi kimi ölkəmizə ilk dəfə məhz o göndərilmişdir. Onu qeyd etməliyik ki, bu dövrdə Şah tərəfindən heç bir səlahiyyəti olmayan elçilər göndərilirdisə, Rusiya çarı tərəfindən artıq səlahiyyətli, hər hansı müqavilə imzalaya biləcək diplomatlar göndərilməyə başladı. 30 nəfərlik heyətlə yola düşən M.N.Tixanovun səfirliyi çox çətin şəraitdə fəaliyyət göstərməli olmuşdu. Yolun uzaqlığı, Həştərxanın kazak atamanı Zarutski və Rusiya taxtına namizəd Marina Mnişek tərəfindən zəbt edilməsi yolun uzanaraq Xivə və Buxaradan keçməsinə səbəb olmuşdu. Buna baxmayaraq Tixanov öz yol gündəliyində çox qısa qeydlərlə bu çətinliklər haqda yazmışdı. Ancaq Səfəvilərin saray həyatı, siyasi və sosial vəziyyətini geniş olaraq işıqlandırmışdı. O qeyd edir: "...uzun və gərgin gözləmələrdən sonra nəhayət, Şahın qəbuluna düşdük. Lakin burada bizdən əlavə digər ölkə səfirləri də var idi. Çox çətinliklə biz öz sözümüzü Şaha deyə bildik." [4, c.52-53]. Səfirliyin əsas məqsədi Şah sarayını Moskva knyazlığı, onun düşdüyü gərgin siyasi vəziyyət, Yalançı Dmitri haqda məlumatlandırmaq, xəzinənin boşaldığını və buna görə də hədiyyələrin azlığının səbəbini aydınlaşdırmaq idi. Eyni zamanda Səfəvi dövlətində həbs edilmiş və Romanovlara qarşı çıxan rus üsyançıları Xoxlov və Qladkovun təslim edilərək ruslara təhvil verilməsi və Səfəvilərin Osmanlı, Krımla olan planlarının müəyyənləşdirməsi tapşırılmışdı. Tixanova verilmiş olan tapşırıqlar "mehriban" münasibətlər yaratmaqdan çox gələcəkdəki işğalçılıq planlarına baza yaradılmasına daha çox bənzəyirdi. Bu qarşılıqlı səfirlik "mübadiləsi" zamanı Rusiyanın da məqsəd və münasibətlərində tam olaraq şəffaflıq görmürük. Belə ki, səfirliyə öz çarlarının hörmət və izzətini saxlamaq, ona qarşı hər hansı bir hörmətsizlik və ya saymamazlıq görərdilərsə, dərhal sarayı tərk etmək, Şahın qəbulunda olarkən onun hədiyyə etdiyi paltarı geyinməmək və digər ölkə səfirləri ilə yanaşı oturmamaq tapşırılmışdı [4, c.59]. Bu barədə rus tədqiqatçısı S.V. Jukovski qeyd edir ki, Moskva nümayəndəliyinə bir neçə adam daxil olurdu, onların hər birinin öz vəzifəsi və tapşırığı olurdu, bəzən birinin digərinin tapşırığından heç xəbəri olmurdu, bu məxfiliyi və əsl məqsədi pərdələmək üçün lazım idi. Nümayəndəliyin "sülhməramlı" olduğunu nümayiş etdirmək üçün buraya mütləq tacirlər də daxil edilir və onların ticarət etməsi üçün hər cür şərait və maliyyə yardımı ayrılırdı [1, c. 132].

M.N.Tixanovun səfirliyinin ardınca əslən kazanlı olan, Moskva knyazı, çapar İvan Brexov bir neçə nəfərlik heyət ilə Səfəvi sarayına göndərilmişdi. 3 ay davam edən sonuncu missiya məqsədə nail olmaq üçün daha çox addımlar ata bilmişdir. Gürcüstan ilə əlaqədar az da olsa, məlumat verən Brexov qeyd edir ki, "Şah buranı tutduqdan sonra kilsələri dağıdaraq xaçları yerə atmışdır." [5, c.86]. Məhz Brexovun bu məlumatınından sonra Şah I Abbasın Şərqi Gürcüstana dair planlarının qarşısını almaq məqsədilə heç bir real hərbi gücü olmayan

Moskva knyazlığı diplomatiyaya əl atmalı olur. Bu məqsədlə 1615-1616-cı illərdə çapar Qriqori Şahmatovun missiyası təşkil edilir. Əvvəldən uğursuzluğa məhkum olan bu missiya Səfəvi şahı tərəfindən tam olaraq hörmətsizliklə qarşılanmış, hətta bu münasibət digər səfir və elçiliklərdə də özünü göstərmişdir. [6]

XVI əsrin 50-ci illərində Kazan və Həştərxan xanlıqlarının işğal edilməsi nəticəsində Volqa-Xəzər ticarət yolunun böyük hissəsi rusların əlinə keçmişdi. Şərqlə ticarət Həştərxan vasitəsilə edildiyinə görə bu şəhərə daha çox diqqət ayrılırdı. Məhz bu şəhər vasitəsilə Rusiyanın cənub ticarəti həyata keçirilir, o cümlədən Xəzərə çıxışı təmin edilirdi. Moskvadan Hörmüzədək uzanan ticarət yolunda Xəzər dənizinin əhəmiyyəti çox böyük idi. Bu səbəbdən də 1616-cı ildə Leontyev və Timofeyev, 1618-ci ildə Baryatinskinin simasında Rusiya diplomatları Səfəvi sarayına təşrif buyurmuşdular. Onların hər birinin məqsədi daha çox iqtisadi yönümlü olmuş, diplomatik tapşırıqlarda rus tacirləri üçün Xəzər dənizində geniş ticarət imtiyazları əldə olunması göstərilir. Dövlətlərarası ticarət əlaqələri siyasi nümayəndəliklərin gediş-gəlişi ilə tənzimlənirdi. Bu dövrdə yeganə olaraq Volqa-Xəzər vasitəsilə ticarəti həyata keçirən Rusiyanın burada daha çox möhkəmlənməyə çalışması təəccüblü deyildir [1, c.105].

Missiyalarda müəyyən siyasi tələblər irəli sürülsə də, bu daha çox kəşfiyyat məqsədi daşıyır. Bu görüşlərin tam bir şəkildə siyasi xarakter alması sonrakı əsrdə də izlənilmiş olur. [7, s.408]

Səfəvi sarayı da Moskva knyazlığı ilə əlaqələr saxlanmasını diqqətdə saxlayaraq 1614-cü ildə M.N.Tixanovun səfirliyi çapar Brexov ilə geri qayıdarkən onlarla birlikdə Bulat bəyi Moskvaya göndərir. Bu qədər tezliklə cavab missiyasının oraya göndərilməsi diplomatik görüşlərdən və Səfəvilərin daxili və xarici siyasi-iqtisadi vəziyyətindən irəli gəlirdi. Şah I Abbas ilk gündən Şərqi Gürcüstanın islamlaşdırılmasına çalışırdı. Bunun üçün o, Rusiyanın "dostluğuna" nail olmalı idi ki, heç bir etirazla üzləşməsin və daxili çaxnaşmaya yol verilməsin. Bundan əlavə, 1612-ci il Sərab müqaviləsindən sonra Osmanlı dövləti revanşa hazırlaşırdı. Bunu nəzərə alaraq öz arxa cəbhəsini Krım türklərindən müdafiə etmək və özünə dayaq yaratmaq məqsədilə Rusiya ilə müttəfiqliyə nail olmaq lazım idi. Yeni çar Mixail Romanova təbrik məktubu göndərməklə yanaşı, dostluq və hərbi ittifaq da təklif edilirdi. "Düşmənə qarşı birgə mübarizə" adı altında Moskva knyazlığını öz tərəfinə çəkməklə, daha geniş planlar həyata keçirmək istəyən Şah I Abbas hətta Moskva knyazlığının iqtisadi vəziyyətinə kömək etmək məqsədilə pul yardımı edilməsini də nəzərdə tutan sənəd tapılmışdır. Bu sənəddə Romanovlar sülaləsi rəsmi olaraq Şah I Abbas tərəfindən tanınırdı və müəyyən yardımın edilməsinə vəd verilirdi. Bu, çapar-tacir Hacı Murtuzun 1614-1616-cı illərdəki missiya sənədlərində öz təsdiqini tapırıq [4, c.98-110].

Yuxarıda göstərilmiş hər bir səfirlik və elçiliyin qarşısına qoyduğu məqsəd müəyyən mənada bir-birini tamamlasa da, hər biri uğursuzluğa düçar olmuşdur. Buna səbəb kimi onu göstərə bilərik ki, bu dövrdə Rusiyanın zəif olması və Səfəvilər tərəfindən ciddiyə alınmaması, eyni zamanda Şah I Abbasın əvvəlki ərazilər çərçivəsində öz qüdrətini bərpa etmək iddiası Rusiyanın dövlətçilik planları ilə uyğun gəlmirdi. Rusiya tərəfindən də onu qeyd etmək yerinə düşərdi ki, Avropa və cənub istiqamətində geniş ərazilərin işğalı nəzərdə tutulurdu.

Səfəvi-Rusiya münasibətlərini əks etdirən bir çox yazılı mənbələr arasında XVII əsrdə Azərbaycana gəlmiş olan rus tacirlərinin də qeydlərini əlbəttə ki nəzərə almalıyıq. Bunlardan Fedot Kotovu göstərə bilərik ki, 1623-cü ildə Şamaxıda yaşayan bu rus taciri öz gündəliyində yerli əhali haqda geniş məlumatlar vermiş, şəhərin tranzit yolları üzərində yerləşməsinin əhəmiyyətindən və şəhərin həmin dövrün ticarətində əsas rolundan bəhs etmişdir. [8, c.35-36]

Vasko da Qama tərəfindən dəniz yolu vasitəsilə Hindistana gedən yolun kəşf olunmasından sonra belə, Şamaxı öz əhəmiyyətini itirməmişdi. Digər rus tacirləri E.A.Paxomov və M.Çulkov da Azərbaycan şəhərləri olan Bakı, Dərbənd və Şabran, xüsusilə Şamaxı haqda dəyərli məlumatlar vermişdilər. [9]

XVI əsrin sonu-XVII əsrin əvvəllərində Səfəvi və Rusiya arasında olan ticarət münasibətlərini yüksələn bir xətt ilə inkişaf etməsi sonrakı dövrlərdə də izlənilir. Bəzi Avropa dövlətləri ilə Şərq ölkələri arasında ticarətin qurulmasında vasitəçi rolunu oynamağa çalışan Rusiyanın canfəşanlığı bu dövrdə daha da artmışdı. Hətta öz iqtisadi maraqlarından çıxış edən Moskva dövləti başqa əcnəbi dövlətlərin tacirlərini sıxışdırmağa çalışırdı. [10, s.290]

Bütün bunları nəzərə alaraq əvvəlki dövrlərə nisbətən XVII əsrin I rübündə Azərbaycan Səfəvilər dövləti ilə Moskva dövləti arasında mövcud əlaqələr əsasən ticarət iqtisadi yönümlü olmuşdur. Müəyyən diplomatik nümayəndəliklərin göndərilməsi, hökmdarlar arasında olan hədiyyə mübadiləsi, müəyyən siyasi sövdələşmələrin olmasına baxmayaraq qeyd olunan xronoloji çərçivədə ciddi siyasi münasibətlərdən söhbət gedə bilməz. Buna səbəb şimal qonşumuzun qüvvətli bir dövlət olmaması, daxili münaqişələrin mövcudluğu və s. idi. Bununla belə geniş ticarət münasibtələrinin olması, hər iki dövlətin qarşılıqlı iqtisadi maraqlarından xəbər verir.

## ƏDƏBİYYAT:

1. Гусейнов А. Азербайджано-русские отношения XV-XVII веков. Баку: Изд-во АН Азерб. ССР,1963, 140 с.
2. Исмаилов Э. Очерки по истории Азербайджана. Москва:Издательство "Флинта", 2010, 424 с.
3. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Баку, Наука, 1949,145 стр.
4. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. (по русским архивам). Москва: Изд-во «Наука», 1987. 479 с.
5. Бушев П.П. История посольств и дипломатических отношений Русского и Иранского государств в 1613-1321 гг. (по русским архивам). Москва: Изд-во «Наука», 1987. 279 с.
6. Azərbaycan tarixi. Yeddi clddə. III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007, 592s.
7. Азярбайъан тарихи (Узаг кечмишдян 1870-ъи иля гядяр) \ проф. С.С.Ялийарлынын редактяси иля, Бакы: Azərbaycan nəşriyyatı, 1996, 872 s.
8. Хожение купца Федота Котова в Персию. М., Изд-во Восточной Литературы, 1958, 562 с.
9. Путешественники об Азербайджане. Т. 1, Составил З.И. Янпольский, Баку: Наука, 1961, 450 стр.
10. Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2012, 442 s.

Tarix və onun problemləri, № 4 2012

**ИСЛАМОВА ЗАХРА**
*Бакинский Государственный Университет*
*Докторант*
*E-mail: ayxan.islamli@mail.ru*

## ИСТОРИЯ АЗЕРБАЙДЖАНА В ПРИМЕЧАНИЯХ РОССИЙСКИХ ПОСЛОВ И ДИПЛОМАТОВ В ПЕРВОЙ ЧЕТВЕРТИ XVII ВЕКА.

В первой четверти XVII века отношений между Москвой и Сефевидами носили торгово-экономические аспекты. Несмотря на отправлений дипломатических миссии, обмен подарков между государями и некоторые политические сделки, в данном хронологическом пределе невозможна сказать о серьезных политических отношениях. Причиной этого является то что, северный сосед не был сильным, имел внутренние конфликты и т.д. Несмотря на это, между данными государствами имелись широкие торговые связи и это говорит, об интересах обоих государств.

**İSLAMOVA ZAHRA**
*Baku State University, Azerbaijan historical chair*
*Doctorant*
*E-mail: ayxan.islamli@mail.ru*

## Azerbaijan history in notes of Russian ambassador and diplomats in the I quarter of the XVII century

The existing connections between Safavides and Moscow state was mostly in the trade and economical aspect, in the I quarter of the XVII century althought comparison previous. In spite of sending definite diplomatic representetions, the present exchange between rules the definite political strike there cannot be any conversation about serious political attitudes which was noticed in the chronological limit. Being unstrong of our north neighbours and existence of the inside conflicts were the cause of it. In spite of extention trade relations gives information about mutical economical interests of the both states.

***Rəyçilər: t.e.n. M.Q.Abdullayev, t.e.d. R.Süleymanov.***
***BDU-nun Tarix fakültəsi Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasın 12 sentyabr 2012-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (protokol N 01)***